# "QİSAS QİYAMƏTƏ QALMAZ..."

Azərbaycanın poliqrafiya mədə-niyyətinin görkəmli nümayəndəsi, ustad naşir Şəddat Muğdat oğlunun həyat və yaradıcılığını ehtiva edən bütün yazılanları demək olar ki, oxumuşam. Keçmiş postsovet məkanında məşhur olan ədəbi publisistik orqanlarda çap olunan əsərlərindən də xəbərim var. Görünür, onun ictimai fəaliyyətdəki fəallığı və naşirlik sahəsindəki xidmətləri, eləcə də poliqrafiyanı elmi cəhətdən araşdırıb ilkin nəzəri əsaslarını yaradan müəllif kimi o diqqəti daha çox cəlb edib. Jurnalistlər, mətbuat tariximizin araşdırıcıları, publisistlər, eləcə də yazıçılar və şairlər Şəddat Cəfərov haqqında müxtəlif janrlarda yazıları qələmə almaqla onun kimliyini söz aləmində əbədiləşdiriblər. Onun bu qədər geniş ədəbi mühitdə diqqətdə olması zənnimcə təkcə naşirlik fəaliyyəti, elmi yaradıcılığı, və yazıçılığı ilə bağlı deyil. Çünki Şəddat Cəfərov bütöv şəxsiyyəti ilə də həmişə müasirlərinin diqqətində olub. İnsanlar yaxşı tanıdıqları obrazı tərənnüm etməkdə xəsislik göstərmirlər.

Bir sözlə, Şəddat Cəfərovun şəxsiyyəti də yazı üçün, yazı müəllifləri üçün işıq olub.

Şəddat Cəfərovun geniş və əhatəli obrazını yaradan müəlliflər sırasında bir neçə ad çəkmək yerinə düşərdi. Ancaq ayrı-ayrı vaxtlarda, ayrı-ayrı yazılarda biz bu yazıları dəfələrlə çəkmişik. İndi yazıçı Fatma Həsən-qızının "Acılı-şirinli günlər" sənədli romanını vərəqlədikcə Şəddat Cəfər-ovu yetirən mühiti daha aydın qavramaq olur və bu fonda bir neçə ad yaddaşımızda özünə məkan alır. Və yaddaşdan silinmir. Əlbəttə, birinci Şəddat Cəfərovun öz adıdır, hər hansı bir əsərin baş qəhrəmanı onu hivz edən, qoruyan şəxsin adıyla daha çox bağlı olur. Bu xeyir əməl sahiblərinin ümumiləşmiş obrazıdır. Qoruyucu mələk timsalında olan bu obraz Nəsibə anadır.

İkinci bir obraz da yaddaşımızdan silinmir, bu da bütün şər işlərin mayası olan insana qənimliyin timsalı olan Kəlbidir.

Kəlbi şər xislətli adamdır. O, təmsil etdiyi rejimin nümayəndəsidir. Bəlkə də anti-insani cəmiyyətin ən qəddar mahiyyətini özündə ehtiva edir. Kiminsə üzündə sevinc görürsə, onun başına sanki daş düşür. Bütün qəddarlığını və mənfi enerjisini səfərbər edib həmin şəxsin sevincini əlindən alır. Ona kədər, ələm, dərd bəxş edir, evini yıxmağa çalışır.

Kəlbi kədər bayquşudur, viranələr aşiqidir. Dağıtdığı evlərin xarabalıqları üzərində qəh-qəh çəkib güləndə özünü kama yetmiş bilir.

Tarixi epoxanı, dövrü, zamanı təmsil edən Kəlbi "Acılı-şirinli gün-lər" romanında həcminə görə epizodik yer alsa da, heç vaxt yaddan çıxmır. Çünki, insanlar nə iş görürlər görsünlər, nəticəni Kəlbinin gözləri ilə müəyyənləşdirməli olurlar.

Nəsibə öz işinin, qayğısının, başqa sözlə desək, dünya ilə savaşının hayındadır. Onun dünyası ərinin yoluna sadiq olmaq, onun adını el içində uca tutmaq, balalarını müha-ribənin gətirdiyi aclıq, səfalət bəla-larından hivz etmək qayəsinə xidmət edir. Nəsibə ana o vaxt özünü başı uca, qürurlu hiss edər ki, ərinin adı qarşısında daşıdığı məsuliyyəti son anadək qorusun, onun mənəvi dün-yasına qəddar mühitin kölgəsi düş-məsin. Əgər övladları aclığın pəncəsindən xilas olacaqsa, öz şərəfini axıradək qoruyacaqsa, onda onun boyu hamıdan uca olacaq.

Bu bir ananın yaşadığı taledir. Müharibə dövründə qismətinə zillətli ömür düşmüş minlərlə anaların ümumiləşmiş taleyidir.

"Acılı-şirinli günlər" romanında Nəsibənin necə qayğı çəkdiyini, hətta bir ananın gücü daxilində olmasa da, ev qurmaq, təsərüfat yaratmaq, ailəni - yəni balalarını rahat yaşam yoluna çıxartmaq üçün fədakarlıqla çalışma-larını görürük. Sadə bir ana öz fədakarlığı ilə görün nələrə qadir olur. Əlbəttə, özünün ağır zəhmətlərə qatlaşması ilə fədakarlığını birləş-dirəndə yenilməz insan - ana obrazı gözlərimiz önündə canlanır: "İsti yay günləri arxada qalmışdı. Bu gün-sabah çəltik biçini başlanacaqdı. Kənd qadınları ev işləri ilə məşğul olmaq və uşaqlarının üstbaşına, pal-paltarın yamaq-yırtığına baxmaq üçün bir qədər vaxt tapmışdılar. Nəsibənin nigarançılığı isə ev tikmək sarıdan idi. O, çətin və ağır iş günlərinə baxmayaraq, vaxt tapıb Xudadatla birgə çölə gedir, lığ biçir və şələ-şələ həyətlərinə daşıyır, günün altında qurudub tay vururdu. Anasının yaxın köməkçisi çöldən qamış qırıb həyətlərinə daşımaqda da Nəsibəyə kömək etmişdi. Nəsibə bir neçə kisə saman da tapıb hazırlamışdı. Onun fikri qəti idi. Həyətlərində palçıqdan, qamışdan da olsa, ikiotaqlı ev tikdirməli idi. Havalar həmişə belə isti keçməyəcəkdi ki! Bəs qışda harda saxlayacaqdı inəyi, buzovu". Bu kiçik parçadakı görünən ana təkcə öz evini tikib qurmaq istəyi ilə yaşamır, təkcə öz övladlarını qorumaq haqqında düşünmür. Biz onun əməli fəaliy-yətində sanki arxa cəbhədə ölkəni çökməyə qoymayan, gələcəkdə Azər-baycanın qurucusu olan yeni nəsli hifz etmək uğrunda çarpışan arxa cəbhə əsgərini görürük. Bu əsgərin xarakteri o qədər möhkəmdir ki, təbiət etibarı ilə o qədər güclüdür ki, o, üzərinə yeriyən bütün qayğıların qabağında yenilməzdir. Özü də məramı aydın, fikri qətidir. Qışa qədər övladlarını yerdən qazma daxmadan çıxarmalıdır. Yoxsa uşaqlar rütubətin bəxş etdiyi xəstəliklər qarşısında məhv olar.

Nəsibə ana fəaldır, nə qədər zəhmətində fəaldırsa, düşüncəsində də bir o qədər fəaldır. Fikirləşir, plan qurur, gücünə uyğun işləri mütləq yerinə yetirmək istəyir. Dolanışıq üçün qazanc gətirməli, ailəni çörəklə təmin etməlidir, üstəlik ev də tikməlidir. Bizə elə gəlir ki, bir ana üçün bu mümkünsüz olar. Doğrudur, böyük oğlu Xudadat da indi ona bir çox işlərdə kömək edir, əl yetirir. Yaxşı adamlar, yaxşı qohumlar da yaxasını kənara çəkmir: "Bir gün qadın işdən evə ertə gəldi. Xudadatı dayısı Əbülfəzi



*Ağadat və Şəddat Göygölün sahilində.*
*25 iyun, 1953-cü il*

çağırmağa göndərdi. Az keçmədi ki, oğlan dayısı ilə qayıtdı. Nəsibəgil bütün yayı komanın qabağındakı dəhlizdə keçirmişdilər. Dəhlizə iki həsir sərmiş, oturmaq üçün üstünə bir neçə döşəkçə döşəmiş və dirsəklənib dincəlmək üçün mütəkkə qoymuşdu. O, dayısına oturmaq üçün yer göstərdi. Əbülfəz həmişəki kimi yerə oturub, mütək-kəyə dirsəkləndi". Nəsibə ana balaları ilə kəndə qayıdandan sonra qayğısını, mümkün olan köməyini əsirgəməyən dayısı Əbülfəzlə məsləhətləşir, fikirindən keçənləri ona bildirir. Əlbəttə, dayısı da o tavanada deyil, həm yaşlıdır, həm də müharibə dövrünün ehtiyacları onu da sıxmaq-dadır. Ancaq buna baxmayaraq Nəsibənin çağırışına ürəklə gəlir. Nəsibənin dayısı Əbülfəzlə söhbətin-də bir çöx məsələlər üzə çıxır. Hətta biz bu arada Kəlbini də xatırlamalı oluruq. Çünki müəllif iki doğma insanın söhbəti əsnasında Kəlbinin adını təsadüfi çəkmir. Kəlbi rejimin təmsilçisi olduğu üçün biz rejimin də təbiətini onun simasında görürük. Kəlbinin qılıncı korşalıbsa, demək rejimin özü də kəsərini itirib. Bir sözlə, zaman dəyişməyə doğru gedir. Kiçik bir dialoqda şər xislətli insanın nəhayət özünün mənfur əməllərinə qurban olmasını açıq-aydın görürük: "Nəsibə çay süzüb dayısının qarşısına qoyandan sonra mətləbə keçdi:

-Dayıcan, bilirsən ki, səni hər xırda işdən ötrü narahat etməyi xoşlamıram. Çağırmışam ki, ürəyimi ağrıdan bu ağır yükü də həll etməkdə mənə kömək edəsən.

-O nə yükdür, bacıqızı? -Əbülfəz kişi sual dolu baxışlarını bacısı qızına dikdi.

-Bax, lığ da biçib qurutmuşuq, qamış da qırıb gətirmişik, saman yığmışıq. Ancaq ev tikmək üçün taxda-şalban hardan tapacağımı bilmirəm. Həyət-baca əkinindən və ağaclarımızın mer-meyvəsindən satıb bir qədər pul da yığmışam.

Əbülfəz qarşısındakı çaydan bir-iki qurtum içib fikrə daldı, sonra üzünü Nəsibəyə tutub dedi:

-Nəsibə, elə mən də bu barədə fikirləşirdim. Sən məni qabaqladın. Qulaq as. Bunun bir yolu var. Bir ərizə kolxoz sədrinə, bir ərizə kənd soveti sədrinə yaz. Ev tikmək üçün taxda, şalban və mismar ayrılmasına kömək etmələrini xahiş elə.

Nəsibə kolxoz sədrindən ehtiyat etmirdi. Ancaq kənd soveti sədrinin adını eşidəndə duruxdu. Ürəyinə qorxu düşdü.

-Dayı, kənd soveti sədrindən qorxuram.

Əbülfəz Nəsibənin qəlbindən keçənləri duydu və dedi:

-İndi zaman sən gördüyün Kəlbi zamanı deyil, qızım. İndiki Sovet sədri çox xeyirxah adamdır.

Nəsibənin ürəyi yerinə gəldi və soruşdu:

-Dayı, bəs o Kəlbi necə oldu?

-Bəs xəbərin yoxdur?

-Yox.

-Dediyin o Kəlbi çox adamlara pislik eləmişdi". Beləcə həyatın çox dəhşətli mənzərəsi təzədən oxucunun gözləri önündə canlanır. Və bizdə belə bir inam yaranır ki, hər kəs bu dünyada öz əməlinə görə əvəzini alır. Şər əməlin, mənfur əməlin cəzasını alan Kəlbi ən yaxşı örnəkdir. İnsanlar uzun illər Kəlbinin adını yaddan çıxarmırlar. Onun bəd əməllərini nağıla çevirir, qorxulu əhvalat kimi, elə qorxulu nağıl kimi sonrakı nəsillərə danışırlar. Zənnimcə Kəlbi kimi insanlar haqqında çox yazmaq lazımdır, çox danışmaq lazımdır. Çünki Kəlbi kimi insanların cəmiyyətin içində təzədən boy verməsi, yaranmış vəziyyətdə yenidən görünməsi mümkündür. Nəsibə ana Kəlbinin taleyi haqqında dayısının danışdığını da qorxulu nağıl kimi dinləyir: "Bilirsən də hər yerdə aclıqdır. Kimi işləyir, əkir, biçir, yaşayır, kimi də əlini ağdan-qaraya vurmayıb ac qalır. Kəlbi də öz şəxsiyyətinə sığışdırmadı. Dedi: -Mən vəzifə sahibi olmuşam. İşdən çıxarsalar da öz mənliyimi itirən deyiləm. İşləməyəcəyəm. Dediyinin üstündə durdu. Oğlanları əsgər getdi. Arvadı öldü özü də acından ölməmək üçün ev əşyalarını bir-bir satdı. Sonra da necə oldusa evlərinə od düşdü və axırıncı dirəyinə kimi yanıb kül oldu. Qaldı quru yurdda. Kənddə heç bir kəs öz evində ona bir künc vermədi. Günlərin bir günü büdrəyib düşdü xəndəyə. Elə orada da öldü. Bilirsən, qızım, kəfən də tapmadı onun üçün, elə paltarqarışıq basdırdıq. Odur ki, atalar yaxşı deyib ki, sən saydığını say, gör fələk nə sayır. Pis əməllərinə görə Allahın qəzəbinə gəldi. Ona görə də hörmətsiz öldü, hörmətsiz də basdırıldı". Kəlbi nəyə nail oldu? Əlbəttə, çox şeyə... Nə qədər günahsız insanın rejimin qəddar hökmlərinə düçar elədi. Nə qədər günahsız insan yerindən, yurdundan didərgin salındı, sürgünlərə göndərilidi. Demək olar ki, o sürgünlərdən çox az adam ayıtdı. Doğrudur, bu qəddar repressiyalardan Şəddat Cəfərovun babası Hüseyn kişi, atası Muğdat salamat qayıdıb vətənə dönə bildi, amma onların dam-daş evləri çoxdan sökülüb dağıdılmışdı.

İndi həyat başqa hökmlər verirdi. Deyəsən insanlar başa düşürdü ki, Kəlbi kimiləri cəmiyyətə şər əhvalı daşımaqdan başqa bir şeyə qadir deyil.

"Acılı-şirinli günlər" sənədli romanının ayrı-ayrı epizodlarında dəfələrlə xeyirlə-şərin qarşılasmasını görürük. Ancaq demək olar ki, həmişə son nəticədə xeyir qalib gəlir.

Əslində Şəddat Cəfərov kimi möhtəşəm bir həyati obrazı cəmiyyətə bəxş edən yenə xeyir qüvvələrin qələbəsidir. Nəsibə kimi fədakar ananın həyatla mücadiləsinin qələbə-sidir. Görünür, Alman faşistlərinə qarşı vuruşan əsgərlərimizin qələbəsini də təmin edən elə arxa cəbhədəki insanların fədakarlığıdır.

Bir anlığa düşünürəm. Nəsibə ananın mücadiləsində qələbə şər qüvvələrin tərəfində olsaydı, biz nələri itirə bilərdik. Ən azı xeyirxahlıq və uca insanlıq örnəyi olan Şəddat Cəfərovu bu gün həyatımızda görməzdik. Onun yaratdığı özünün mənəvi zənginliyi ilə rişə verdiyi, can verdiyi yeni nəsil ağacını görməzdik.

Uca olan haqq, qadir Allah həmişə xeyirxahların tərəfindədir.

***Əli Rza XƏLƏFLİ***
***25.05.2021***